EU4Energy

Covenant of Mayors
for Climate & Energy
Eastern Partnership

# İQLİM VƏ ENERJİ ÜZRƏ MERLƏRİN RAZILAŞMASI

***Biz, bu Razılaşmanı imzalayan merlər, bələdiyyəmizin ölçüsündən və ya dünya xəritəsində yerləşməsindən asılı olmayaraq, dayanıqlı gələcək baxışı barədə həmfikirik. Bu ümumi vizyon bizim fəaliyyətimizi bir-biri ilə əlaqəli iqlim dəyişikliyinin azaldılması, uyğunlaşma və davamlı enerji problemlərinin həllinə yönəldir . Biz birlikdə indiki və gələcək nəsillər üçün ekoloji, sosial və iqtisadi cəhətdən sabit mühit təmin edən konkret, uzunmüddətli tədbirlər həyata keçirməyə hazırıq. Daha dayanığlı, cəlbedici, yaşana bilən, davamlı və enerji baxımından səmərələri ərazilər qurmaq bizim kollektiv məsuliyyətimizdir.***

## BİZ, MERLƏR, ETİRAF EDİRİK Kİ:

İqlim dəyişikliyi artıq baş verir və zəmanəmizin ən böyük qlobal problemlərindən biri olaraq bütün dünyada yerli, regional və milli hakimiyyət orqanlarının təcili tədbirlər görməsini və əməkdaşlıq etməsini tələb edir;

Yerli hakimiyyət orqanları vətəndaşlara ən yaxın idarəetmə səviyyəsində enerji keçidinin və iqlim dəyişikliyi ilə mübarizənin əsas hərəkətvericiləridir. Yerli hakimiyyət orqanları iqlimlə bağlı fəaliyyət üzrə məsuliyyəti regional və milli səviyyələrlə bölüşür və digər tərəflərin öhdəliklərindən asılı olmayaraq hərəkət etməyə hazırdır. Yerli və regional hakimiyyət orqanları bütün sosial-iqtisadi vəziyyətlərdə və coğrafi yerlərdə öz ərazilərinin iqlim dəyişikliyinin müxtəlif təsirlərinə həssaslığının azaldılmasında ön xətdə dayanırlar. Emissiyaların azaldılması səyləri artıq həyata keçirilsə də, uyğunlaşma təsirlərin azaldılması üçün zəruri və əvəzedilməz əlavə olaraq qalmaqdadır;

İqlim dəyişikliyinin yumşaldılması və ona uyğunlaşma ətraf mühitə, cəmiyyətə və iqtisadiyyata çoxsaylı faydalar gətirə bilər. Birgə həll edilməklə, onlar dayanıqlı yerli inkişafı təşviq etmək üçün yeni imkanlar açır. Buraya inklüziv, iqlimə davamlı, enerji səmərəli icmaların yaradılması daxildir; həyat keyfiyyətinin yüksəldilməsi; investisiyaların və innovasiyaların stimullaşdırılması; yerli iqtisadiyyatın təşviq edilməsi və iş yerlərinin yaradılması; maraqlı tərəflərin iştirakı və əməkdaşlığının gücləndirilməsi daxildir;

Enerji və iqlim problemləri ilə bağlı yerli həllər vətəndaşları təhlükəsiz, dayanıqlı, rəqabətədavamlı və sərfəli enerji ilə təmin etməyə köməklik edir və buna görə də enerji asılılığının azaldılmasına və həssas istehlakçıların qorunmasına töhfə verir.

## BiZ , MERLƏR, AŞAĞIDAKİLARLA BAĞLI 2050 İL ÜÇÜN VİZYONLA RAZIYIQ:

- Karbonsuzlaşdırılmış ərazilər, beləliklə 2015-ci ilin dekabrında Parisdə COP21-də əldə edilmiş beynəlxalq iqlim razılaşmasına uyğun olaraq, orta qlobal istiləşməni sənayeləşdirmədən əvvəlki səviyyədən 2°C-dən xeyli aşağı saxlamağa kömək edilir;
- Daha dayanıqlı ərazilər, beləliklə, iqlim dəyişikliyinin qaçınılmaz mənfi təsirlərinə hazırlıq təmin olunur;
- Hamı üçün təhlükəsiz, dayanıqlı və sərfəli enerji xidmətlərinə universal çıxış, beləliklə, həyat keyfiyyəti artır və enerji təhlükəsizliyi yaxşılaşdırır.

## BUNA NAİL OLMAQ ÜÇÜN BİZ, MERLƏR, ÖHDƏLİK GÖTÜRÜRÜK Kİ:

- Ortamüddətli hədəf kimi: xüsusi olaraq, enerji səmərəliliyini artırmaq və bərpa olunan enerji mənbələrindən daha çox istifadə etmək hesabına, 2030-cu ilə qədər bələdiyyələrimizin ərazisində CO2 (və ola bilsin ki, digər İXQ-lar) emissiyalarını ən azı 30% və ya 35% azaltmaq[1];
- Uzunmüddətli hədəf kimi: bələdiyyələrimizin ərazisində CO2 (və ola bilsin ki, digər İXQ-lar) emissiyalarını **1990-cı il** emissiya səviyyələri ilə müqayisədə **2050-ci ilə qədər ən azı 60%** və ya **2005-ci ildən sonrakı** baza ili səviyyələri ilə müqayisədə **2050-ci ilə qədər ən azı 40%** azaltmaq;
- **2050-ci ilə qədər iqlim neytrallığına nail olmaq üçün** NDC (Milli səviyyədə Təyin olunmuş Töhfələr) öhdəlikləri və Şərq Tərəfdaşlığı regionu üçün yuxarıda qeyd olunan minimum hədəflərlə müqayisədə iqlim və enerji siyasətlərimizdə **daha iddialı uzunmüddətli hədəflərə** nail olmaq üçün səy göstərmək.
- İqlim dəyişikliyinin təsirlərinə uyğunlaşaraq davamlılığımızı artırmaq;
- Ədalətli keçidi və əhalinin əlverişli, təhlükəsiz və davamlı enerjiyə çıxışını təmin etmək üçün əsas tədbirlərdən biri kimi enerji yoxsulluğu ilə mübarizə.
- Birbaşa əməkdaşlıq və həmkarlar arasında qarşılıqlı əlaqə yolu ilə, xüsusən də Qlobal Merlərin Razılaşması kontekstində Şərq Tərəfdaşlığı ölkələri,  Aİ daxilində və ondan kənarda yerli və regional hakimiyyət orqanları ilə vizyonumuzu, nəticələrimizi, təcrübəmizi və nou-haumuzu  bölüşmək.

Yerli hakimiyyət orqanlarımızın öhdəliklərini fəaliyyətə çevirmək üçün biz Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planının hazırlanması və təqdim edilməsi, həmçinin tərəqqinin müntəzəm monitorinqi daxil olmaqla, Merlər Razılaşmasının müvafiq prosedur və metodologiyalarına əməl etməyi öhdəmizə götürürük.

## BUZ, MERLƏR, ETİRAF EDİRİK Kİ BİZİM ÖHDƏLİKLƏRİMİZ  ÜÇÜN AŞAĞIDAKILAR TƏLƏB OLUNUR:

- Güclü siyasi liderlik;
- Siyasi mandatlardan kənara çıxan iddialı uzunmüddətli məqsədlərin müəyyən edilməsi;
- İşə cəlb olunmuş bütün bələdiyyə idarələrinin səfərbər edilməsi yolu ilə yumşaldılma (mitiqasiya) və uyğunlaşma (adaptasiya) arasında əlaqələndirilmiş (qarşılıqlı) fəaliyyət;
- Sektorlararası və vahid ərazi yanaşması;
- Müvafiq insan, texniki və maliyyə resurslarının ayrılması;
- Ərazilərimiz daxilində bütün müvafiq maraqlı tərəflərin cəlb edilməsi;
- Vətəndaşların əsas enerji istehlakçıları, "aktiv istehlakçılar" və tələblərə cavab verən enerji sisteminin iştirakçıları kimi səlahiyyətlərinin artırılması;
- Xüsusilə "uduzmayan" çevik tədbirlərvasitəsilə təcili tədbirlər;
- Enerji keçidinin texniki və sosial problemlərini həll etmək üçün ağıllı (smart)  həllərin tətbiqi;
- Monitorinq və qiymətləndirmə nəticələrinə əsasən fəaliyyətlərimizin müntəzəm olaraq tənzimlənməsi;
- Yerli hakimiyyət orqanları və hökumətin bütün digər səviyyələri arasında birləşmiş üfüqi və şaquli əməkdaşlıq.

---

[1] *Yalnız 2030-cu ilə qədər emissiyanın 30% və ya 35% azaldılması öhdəliyi olan və MR2050-yə qoşulan MR2030 imzalayanlara şamil edilir.*

EU4Energy

Covenant of Mayors for Climate & Energy Eastern Partnership

**BİZ, MERLƏR:**

- İqlim dəyişikliyi ilə mübarizənin hər iki sütunu olan yumşaldılma və uyğunlaşmanı bu vahid çətir təşəbbüsü altına gətirən və Aİ-nin digər müvafiq siyasət və təşəbbüsləri ilə sinerjini daha da gücləndirən Avropa Komissiyasının təşəbbüsünü;
- Merlərin Razılaşması modelinin Qlobal Merlərin Razılaşması vasitəsilə dünyanın digər hissələrinə yayılmasına Avropa Komissiyasının dəstəyini;
- Aİ yerli və regional hakimiyyət orqanlarının institusional səsi kimi Regionlar Komitəsinin Merlərin Razılaşması və onun məqsədlərinə dəstəyini;
- Üzv Dövlətlər, regionlar, vilayətlər, mentor şəhərlər və digər institusional strukturlar tərəfindən Merlərin Razılaşması çərçivəsində yumşaldılma və uyğunlaşma öhdəliklərinin yerinə yetirilməsində yerli hakimiyyət orqanlarına göstərilən yardımı,

**ALQIŞLAYIRIQ**

**BİZ, MERLƏR:**

- **DİGƏR YERLİ İDARƏ ETMƏ QURUMLARINI:**
  - Merlərin Razılaşması icmasında bizə qoşulmağa;
  - Merlərin Razılaşması çərçivəsində biliyi paylaşmağa və bacarıqların artırılması fəaliyyətlərində iştirak etməyə.
- **REGİONAL/ SUBMILLI HAKİMİYYƏT ORQANLARINI:**
  - Fəaliyyət plan(lar)ımızın və əlaqədar tədbirlərin hazırlanmasında, həyata keçirilməsində və monitorinqində bizə strateji rəhbərlik, siyasət, texniki və maliyyə dəstəyini göstərməyə;
  - Daha səmərəli və inteqrasiya olunmuş fəaliyyət üçün əməkdaşlığı və birgə yanaşmaları inkişaf etdirməyə köməklik etməyə
- **MİLLİ HÖKUMƏTLƏRİ:**
  - İqlim dəyişikliyi ilə mübarizədə məsuliyyətlərini üzərinə götürməyə və bizim yerli yumşaldılma və uyğunlaşma strategiyalarımızın hazırlanması və həyata keçirilməsi üçün müvafiq siyasət, texniki və maliyyə dəstəyini təmin etməyə;
  - Bizi milli yumşaldılma və uyğunlaşma strategiyalarının hazırlanmasına və həyata keçirilməsinə cəlb etməyə;
  - Yerli iqlim və enerji fəaliyyətini dəstəkləmək üçün maliyyələşdirmə mexanizmlərinə müvafiq çıxışı təmin etməyə;
  - Yerli səylərimizin təsirini etiraf etməyə, ehtiyaclarımızı nəzərə almağa milli, Avropa və beynəlxalq iqlim proseslərində fikirlərimizi əks etdirməyə;
- **AVROPA İNSTİTUTLARINI:**
  - Yerli iqlim və enerji strategiyalarının və şəhərdən şəhərə əməkdaşlığın həyata keçirilməsini dəstəkləyən siyasət çərçivələrini birləşdirməyə;
  - Bizi müvafiq əməliyyat, texniki və təşviqat yardımı ilə təmin etməyə;
  - Bizi hazırlıq və həyata keçirmə mərhələlərinə cəlb etməklə yanaşı, Avropa İttifaqının müvafiq siyasətlərində, dəstək proqramlarında və fəaliyyətlərində Merlərin Razılaşmasının tətbiqini davam etdirməyə;
  - Öhdəliklərimizin həyata keçirilməsi üçün maliyyə imkanlarının yaradılmasını, eləcə də investisiya proqramlarının işlənib hazırlanmasında, tenderlərin keçirilməsində və işə salınmasında bizə kömək edən xüsusi layihələrin hazırlanmasına yardım vasitələri təklif etməkdə davam etməyə;

- İqlim dəyişikliyi təsirlərinin yumşaldılmasında və ona uyğunlaşmada rolumuzu və səylərimizi etiraf etməyə və nailiyyətlərimizi beynəlxalq ictimaiyyətlə bölüşməyə,

- **DİGƏR MARAQLI TƏRƏFLƏRİ[2] :**
  - Yerli səylərimizi tamamlayan və gücləndirən təcrübə, nou-hau, texnologiya və maliyyə resurslarını səfərbər etməyə və paylaşmağa, potensialın yaradılmasını genişləndirməyə, innovasiyaları təşviq etməyə və investisiyaları artırmağa;
  - Enerji keçidində fəal oyunçu olmağa və icma fəaliyyətində iştirak edərək bizə dəstək verməyə

**DƏVƏT EDİRİK.**

## BİZ, MERLƏR, ETİRAF EDİRİK Kİ:

- **Siyasi dəstək**: Öhdəlik, Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı və digər müvafiq planlaşdırma sənədləri bələdiyyə şurasının qərarı/qərarları ilə təsdiqlənməlidir. Bu, uzunmüddətli siyasi dəstəyi təmin etməyə imkan verir.
- **Güclü, ardıcıl, şəffaf və uyğunlaşdırılmış məlumatların tərtibi və hesabat çərçivəsi**: Bələdiyyələrin, regionların və şəhər şəbəkələrinin təcrübəsinə əsaslanan Merlər Razılaşmasının metodologiyası Avropa Komissiyası ilə birlikdə hazırlanmış etibarlı texniki və elmi baza ilə dəstəklənir. Ümumi metodoloji prinsiplər və hesabat şablonları işlənib hazırlanmışdır ki, bu da imza edənlərə strukturlaşdırılmış və sistemli şəkildə öz tərəqqilərini izləmək, hesabat vermək və ictimaiyyətə açıqlamaq imkanı verir. Təqdim edilmiş Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı Merlərin Razılaşmasının internet səhifəsində imzalayanın onlayn profilində ictimaiyyətə açıqlanır. Bu, onların yerli iqlim fəaliyyətlərinin şəffaflığını, hesabatlılığını və müqayisə edilə bilməsini təmin edir.
- **Görülən səylərin tanınması və yüksək əyani təqdimatı:** Hesabat şablonları vasitəsilə toplanmış fərdi və kollektiv nəticələr fikir mübadilələri və özünüqiymətləndirməni həvəsləndirmək və asanlaşdırmaq üçün ictimaiyyətə açıqlanır, yəni Merlərin Razılaşmasının internet saytında yerləşdirilir. Merlərin Razılaşması vasitəsilə məlumatların təqdim edilməsi onu imzalayanlara öz fəaliyyətlərinin yerlərdə geniş təsirini nümayiş etdirməyə imkan verir. Merlərin Razılaşması hesabat strukturu vasitəsilə toplanan məlumatlar, həmçinin milli, Avropa və beynəlxalq siyasətçilərinə yerli tədbirlər haqqında əsas rəy verir.
- **İmzalayanlar tərəfindən bildirilən məlumatların qiymətləndirilməsi:** Bu keyfiyyətə nəzarət bütün Merlərin Razılaşması təşəbbüsünün doğruluğunu və etibarlılığını təmin etməyə kömək edir.
- **Öhdəliyin yerinə yetirilməməsi halında dayandırma**: İmzalayanlar qəbul edirlər ki, yuxarıda qeyd olunan sənədlər (yəni, Dayanıqlı Enerji və İqlim üzrə Fəaliyyət Planı və Monitorinq Hesabatları) müəyyən edilmiş müddətlərdə təqdim edilmədiyi halda, Merlərin Razılaşması Ofisi tərəfindən əvvəlcədən yazılı bildiriş verilmə şərtilə, təşəbbüsdə iştirak dayandırılacaqdır . Bu prosedur öz öhdəliklərini yerinə yetirən digər imzalayanlara qarşı şəffaflığı, möhkəmliyi və ədalətliliyi təmin edir.



[2] *Məs, özəl sektor, maliyyə institutları, vətəndaş cəmiyyəti, elmi ictimaiyyət və akademiya*